**Əmək Məcəlləsinə dəyişikliklər**

Respublikanın əmək bazarına nəzarətin gücləndirilməsi, işəgötürənin hüquqi məsuliyyətinin daha da artırılması üçün qüvvədə olan Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi gözlənilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yaradılmış Təhlükəsiz və Sağlam Əmək Şəraiti üzrə Milli Üçtərəfli Sosial Şura bununla bağlı təkliflər hazırlayıb.

Nazirlikdən verilən məlumata görə, hazırda mövcud əmək qanunvericiliyi işəgötürənin zəruri hesab etdiyi müəyyən işləri fiziki şəxslərlə mülki-hüquqi müqavilə bağlamaqla da həyata keçirməyə imkan verir. Belə ki, qanunvericilikdə mülki-hüquqi müqavilə və əmək müqaviləsi arasında prinsipial fərqləri müəyyən edən birbaşa normaların göstərilməməsi işəgötürənlərin işçilərlə əmək münasibəti yaradarkən daha çox mülki-hüquqi müqavilələrə üstünlük vermələrinə şərait yaradır.

Əmək müqaviləsi əvəzinə mülki müqavilənin bağlanmasında məqsəd isə iş yerlərində əməyin mühafizəsi norma və qaydalarına əməl olunmasından, işçinin xüsusi geyim, fərdi mühafizə vasitələri ilə təmin edilməsindən, dövri olaraq tibbi müayinədən keçirilməsindən yayınmaq, məcburi dövlət sosial sığorta haqqını fiziki şəxsin üzərinə qoymaqdır. Əmək Məcəlləsinin 6-cı maddəsinə əsasən, mülki-hüquqi müqavilə üzrə işləri yerinə yetirən şəxslər əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən Dövlət Əmək Müfəttişliyi Xidmətinin nəzarət dairəsinə düşmədikləri üçün vergidən də yayınırlar.

Nazirlikdən verilən xəbərdə vurğulanır ki, Əmək Məcəlləsinə dəyişikliklərlə bağlı təkliflərdən biri də mülki müqavilə bağlanan işçilərin sayının ümumi işçilərin 10%-dən çox olmamasını nəzərdə tutur. Bu məqsədlə «Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihələri Sosial Şurada müzakirə olunur.

Qanunvericiliyə təklif olunan dəyişikliklər əmək bazarına nəzarətin gücləndirilməsi və vergidən yayınma hallarının qarşısının alınması baxımından əhəmiyyətli hesab edilir. Hüquqşünas Aydın Kərimov hesab edir ki, ölkənin mövcud inkişaf səviyyəsi əmək qanunvericiliyinin daha da təkmilləşdirilməsini və işəgötürənlərin hüquqi məsuliyyətinin artırılmasını zəruri edir: «Ölkə iqtisadiyyatının sürətlə inkişaf etdiyi hazırkı şəraitdə hökumət təsərrüfat subyektlərinin fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılmasını son dərəcə zəruri hesab edir, korrupsiya və vergidən yayınma hallarına qarşı mübarizə gücləndirilir. Bu baxımdan, əmək bazarına nəzarətin gücləndirilməsi də tamamilə təbiidir. Sirr deyil ki, bu gün respublikanın əksər özəl şirkətlərində vergidən və sosial sığorta ödənişlərindən yayınmaq məqsədilə iş yerlərinin böyük əksəriyyəti rəsmiləşdirilmir. Bir sıra biznes strukturları işçilərinin sayını bilərəkdən az göstərir, muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarına real vəziyyəti əks etdirən göstəriciləri daxil etmirlər. Məhz buna görə də qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı irəli sürülən təkliflər obyektiv reallıqdan irəli gəlir».

A.Kərimov hesab edir ki, Əmək Məcəlləsinə ediləcək dəyişikliklər işəgötürənlərin üzərinə əmək müqavilələrinin imzalanması ilə bağlı əlavə məsuliyyət qoyacaq: «Hesab edirəm ki, bu dəyişikliklər fiziki və hüquqi şəxslərin əmək müqavilələrinin imzalanması ilə bağlı məsuliyyətini daha da artıracaq. Qanunvericilikdəki boşluqdan istifadə edən işəgötürənlərin işçilərlə kütləvi şəkildə mülki müqavilə imzalaması isə mümkün olmayacaq. Beləliklə, həm də vergilərdən yayınmaların qarşısı alınacaq».

«Konstitusiya» Araşdırmalar Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev Əmək Məcəlləsinə təklif olunan əlavə və dəyişikliklərin zamanın tələbindən irəli gəldiyi qənaətindədir: «Bu gün ölkədə məşğul əhalinin sayı ilə müqayisədə əmək müqaviləsi əsasında işləyənlərin sayı xeyli azdır. Bu, onu göstərir ki, bir çox işəgötürənlər qeyri-leqal əmək münasibətlərinə yol verməkdə, bununla həm işçi hüquqlarını pozmaqda, həm də müvafiq vergiləri ödəməkdən yayınmaqda davam edirlər. Əmək Məcəlləsinə dəyişikliklərin edilməsi də məhz belə halların qarşısını almağa xidmət edir. Hesab edirəm ki, son zamanlar bu istiqamətdə həyata keçirilən tədbirlər işçilərin əmək hüquqlarının müdafiəsini gücləndirəcək».

S.MUSTAFAYEV